**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

***Əlyazması hüququnda***

**XATİRƏ EYVAZ QIZI**
**MEHDİYEVA**

# CƏNUBI QAFQAZ RESPUBLIKALARININ AVROPA STRUKTURLARINA INTEQRASIYASI: MÜQAYISƏLI TƏHLIL

Ixtisas: 5901.01 – Beynəlxalq münasibətlər

**Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI -2017**

Dissertasiya işi Bakı Dövlət Universitetinin "Beynəlxalq münasibətlər" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Zeynal Mədət oğlu Həsənalıyev**
*tarix elmləri doktoru, professor*

**Rəsmi opponentlər:** **Məmməd Böyükxan oğlu Fətəliyev**
*tarix elmləri doktoru, professor*

**Nərgiz Cəlil qızı Nağıyeva**
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

**Aparıcı müəssisə:** **AMEA-nın Hüquq və İnsan Haqları İnstitutu**

Dissertasiyanın müdafiəsi «10___»__03_ 2017-ci il saat ____$^{00}$-da Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının 07 dekabr 2016-cı il tarixli 191saylı əmri ilə « 5901.01-Beynəlxalq münasibətlər» ixtisasında siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi verilməsi üçün Bakı Dövlət Universitetinin nəzdində yaradılmış Birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan**: AZ-1148. Bakı şəhəri, Z.Xəlilov küçəsi, 23, I korpus, 412-ci auditoriya.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat «____» _____________2017-ci ildə göndərilmişdir

**Birdəfəlik Dissertasiya**
**Şurasının elmi katibi, siyasi**
**elmlər üzrə fəlsəfə doktoru:** **dosent K.C.Məmmədov**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** XX əsrin sonları və XXI əsrin əvvəlləri beynəlxalq münasibətlərdə köklü dəyişikliklərin baş verməsi ilə səciyyələnir. Bu dəyişiklərin birbaşa təsirinə məruz qalan regionlardan biri də Cənubi Qafqaz olmuşdur. Sovet İttifaqının süqut etməsi ilə müstəqilliklərinə qovuşmuş region ölkələri özlərinin siyasi və iqtisadi yönlərini müəyyənləşdirərkən tərəddüd etmədən Avropaya inteqrasiya kursuna üstünlük verdilər. Lakin inteqrasiya prosesi heç də tam hamar getməmişdir. Regionda həllini tapmayan münaqişələrin olması, təhlükəsizliyə ciddi təhdidlərin qalması və Rusiya amili Avropaya inteqrasiya prosesinə bu və ya digər səviyyədə təsirlərini göstərmişdir və bu, bu gün də müşahidə olunmaqdadır. Qafqazda daimi maraqlara malik olan, lakin SSRİ-nin mövcudluğu dönəmində bu maraqlarını reallaşdırmaq imkanlarına malik olmayan Avropa, region dövlətlərinin müstəqilliklərinin elə illərindən onlarla fəal əməkdaşlıq müstəvilərini müəyyənləşdirməyə başladı. Qısa bir zamanda regionda əsas geosiyasi oyunçulardan birinə çevrilən Avropa İttifaqı, region ölkələrində bütün sahələrdə Avropa dəyərlərinin oturuşmasını təmin etmək yolu ilə özünün bir hissəsinə çevirməyə çalışırdı. Avropa İttifaqı region ölkələri ilə münasibətlərini bütün mümkün formatlarda inkişaf etdirməyə üstünlük vermişdir. Ümumiyyətlə, mövzunun aktuallığını şərtləndirən əsas məqamları daha konkret şəkildə aşağıdakı kimi təqdim etmək mümkündür:

1.Cənubi Qafqaz ölkələri Avropa strukturlarına inteqrasiyanı özlərinin xarici siyasətlərinin prioriteti kimi müəyyənləşdirmişlər. Avropa İttifaqı da özü-özülüyündə regionla bağlı konturlarını dəqiq müəyyənləşdirdiyi strategiyaya malik olmasına baxmayaraq, region ölkələri ilə münasibətlərini əsasən həmin ölkələrdən gələn impulslara görə qururdu. Yəni, hansı ölkə daha artıq təşəbbüs göstərirdisə, həmin ölkə ilə əlaqələrin inkişafında daha artıq dinamiklik müşahidə olunurdu. Təbii ki, region dövlətlərindən hər biri müəyyən amillərin təsiri altında, özlərinin milli maraqlarının xarakterindən çıxış edərək xarici siyasətlərinin konturlarını dəqiqləşdirmişlər. Müfaviq olaraq, hər üç region dövləti Avropa Strukturları ilə əlaqələrin inkişaf etdirilməsi ilə bağlı oxşar maraqlara malik olsalar da, təmasların sıxlaşdırılmasında az da olsa fərqlənən dinamiklik nümayiş etdirmişlər. Bu istiqamətdə daha



aydın təsəvvürlərə malik olmaq üçün seçilmiş mövzu ətrafında tədqiqatların aparılması əhəmiyyətlidir;

2.Cənubi Qafqaz ölkələri ilə Avropa strukturları arasında münasibətlərin inkişaf etdirilməsi tərəflərin xarici fəaliyyətlərinin prioritet istiqamətlərindəndir. Münasibətlərin xarakterinə və əməkdaşlığın səviyyəsinə müasir mərhələdə Avropa məkanında cərəyan edən bir sıra mühüm proseslər ciddi təsir etməkdədir. Bunlardan Aİ-nin genişlənməsini, avronun vahid Avropa valyutası kimi müəyyənləş-dirilməsini, siyasi, hərbi, hüquq-mühafizə və s. sahələrində yeni inteqrasiya strukturlarının meydana gəlməsini göstərmək olar. Avropa strukturları Cənubi Qafqaz ölkələri ilə əməkdaşlıqlarını inkişaf etdirməklə, bir növ Aİ-nin regionda həyata keçirdiyi geosiyasi və geoiqtisadi strategiyaya dəstək vermiş olurlar. Region ölkələri Avropa Şurası, ATƏT, NATO və Aİ-nin bir sıra iqtisadi strukturları ilə geniş əməkdaşlıq sistemi qurmaqda ciddi maraqlara malikdirlər. Bu maraq əsasən Avropaya inteqrasiya prosesinin maksimum səmərəli və dinamik getməsini təmin etməklə bağlıdır. Mövzu çərçivəsində tədqiqatlar aparmaqla, Cənubi Qafqaz ölkələrinin ayrı-ayrı Avropa strukturları ilə əlaqələrinin qurulması prosesi və prinsipləri haqqında dəqiq təsəvvürlər əldə etmək mümkündür;

3.Azərbaycanın maksimum çevikliklə Avropa strukturlarına inteqrasiyasını zəruri edən obyektiv səbəblər daha çox və daha ciddi idi. Belə ki, zəngin karbohidrogen ehtiyatlarına malik olan Azərbaycanın enerji daşıyıcılarının hasilatında və istehsalında qərb texnologiyalarına və maliyyəsinə ciddi ehtiyacı var idi. Bu baxımdan, müstəqilliyinin ilk illərində iqtisadiyyatının dirçəlməsi enerji sektorunun inkişafından asılı olan Azərbaycan ilkin olaraq enerji sahəsində Qərblə əlaqələrin qurulmasını və inkişafını həyati vacib məqam kimi qiymətləndirirdi. Müvafiq olaraq, enerji daşıyıcılarının dünyada ən böyük sayılan Avropa enerji bazarına çıxarılmasında da olduqca maraqlı idi. Göründüyü kimi, Qərb strukturları ilə sıx əməkdaşlığın qurulması Azərbaycan üçün daha vacib əhəmiyyət kəsb edirdi. Bu baxımdan, Azərbaycanın Avropaya inteqrasiyası prosesinin səciyyəvi tərəflərinin araşdırılması kifayət qədər aktuallıq kəsb edir;

4.Cənubi Qafqaz regionunda Avropa İttifaqının xüsusi diqqət ayırdığı məsələlərdən biri də buradakı münaqişələrin tənzimlənməsi və ya idarə olunmasıdır. Avropa İttifaqı bu sahəyə Avropa qonşuluq

siyasəti çərçivəsində diqqət yetirir. Avropa qonşuluq siyasətinin inkişaf etdirilməsi Avropa institutlarının münaqişələrin tənzimlənməsi və idarə olunması istiqamətində cəhdlərinin güclənməsinə yeni impuls vermişdir. Bu məqamın ayrıca araşdırılması müasir reallıq çərçivəsində olduqca əhəmiyyətlidir

**Mövzunun işlənmə dərəcəsi.** Cənubi Qafqaz ölkələrinin Avropa strukturlarına inteqrasiyası mövzusu ətrafında kompleks elmi-tədqiqat işləri azlıq təşkil edir. Buna baxmayaraq, regionun ayrı-ayrı ölkələrinin fərdi qaydada Avropa strukturları ilə əlaqələr qurmaları və inkişaf etdirmələrini əhatə edən bir sıra elmi əsərlərə rast gəlmək mümkündür. Lakin bunlar da azlıq təşkil edirlər. İlkin olaraq qeyd edək ki, Azərbaycanda, ölkənin beynəlxalq münasibətlər sistemində yeri və rolu ətrafında aparılan elmi-tədqiqatlar Azərbaycanın Avropa İttifaqı və onun ayrı-ayrı strukturları ilə əlaqələrini də əhatə edir. Bu zaman həmçinin, Cənubi Qafqaz regionunun geosiyasi və geoiqtisadi xüsusiyyətləri, regionda dünyanın güc mərkəzlərinin maraqlarının toqquşmasını şərtləndirən amillər, cərəyan edən müxtəlif xarakterli proseslər ətrafında da müəyyən təhlillər aparılmışdır. Bu istiqamətdə tədqiqatlar aparmış azərbaycanlı müəlliflərdən Ə.Həsənov,[1] Y.Mahmudov,[2] H.Hüseynova,[3] H.Məmmədov,[4] R.İbadov,[5] S.Həmidov,[6]

[1] Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, "Azərbaycan nəşriyyatı", 2005, 752 s.; Həsənov Ə.M. Azərbaycanın xarici siyasəti: Avropa ölkələri və ABŞ (1991-1996). Bakı, Azərnəşr, 1998, 315 s.; Həsənov Ə. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996). Bakı: Elm, 2000, 368 s.

[2] Mahmudov Y. Azərbaycan: beynəlxalq münasibətlər və diplomatiya tarixi : dövlətlərarası müqavilələr və digər xarici siyasət aktları: 4 cilddə.I cild. Bakı, 2009, 512 s.

[3] Hüseynova H. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində. Bakı: Hərbi nəşriyyat, 1998, 205 s.

[4] Məmmədov H. Azərbaycan Respublikasının müasir dünya siyasətində yeri və rolu. Bakı, 2009, 328 s.

[5] İbadov R. Avropa İttifaqının əsasları. Bakı, 2004, 212s.

[6] Həmidov S. Avropa İttifaqında siyasi inteqrasiya prosesləri və Azərbaycan. Bakı, Qanun, 2011, 328 *s.*



M.Qasımlı,[1] N.Məmmədov,[2] A.Abbasbəyli,[3] E.Əliyev,[4] Ə.Əzimli,[5] N.Axundov,[6] G.Paşayeva[7] və başqalarını qeyd etmək olar.

Tanınmış tədqiqatçı professor Əli Həsənov çoxsaylı əsərlərində müasir beynəlxalq münasibətlərin xarakteri, Azərbaycan Respublikasının xarici əlaqələri, dünyanın geosiyasi mənzərəsi və s. kimi problemlər ətrafında təhlillər aparmışdır. Məsələn, "Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti" adlı əsərində müasir beynəlxalq münasibətlər sistemi, yeni dünya düzənin formalaşması xüsusiyyətləri, müasir beynəlxalq münasibətlər sisteminin Azərbaycan dövlətinin yeri və rolu kimi məsələlərə toxunur. Əsərdə müəllif həmçinin ayrı-ayrı beynəlxalq təşkilatlarla Azərbaycan arasında qarşılıqlı əlaqələrin qurulması və inkişaf etdirilməsi prosesi ətrafında geniş təhlillər aparır. Tədqiqatçının "Geosiyasət" adlı əsərində enerji məsələləri, onun dünyanın geosiyasi vəziyyətinə təsir imkanları, böyük dövlətlərin və Avropa İttifaqı Birləşmiş Millətlər Təşkilatı kimi beynəlxalq təşkilatların bu sahədə fəaliyyətlərinin müəyyən aspektləri öz əksini tapmışdır.

Tanınmış digər tədqiqatçı Y.Mahmudov da əsərlərinin əksəriyyətində beynəlxalq münasibətlərdən bəhs edir. Tədqiqatçının dördcildlik "Azərbaycan: beynəlxalq münasibətlər və diplomatiya tarixi : dövlətlərarası müqavilələr və digər xarici siyasət aktları" adlı əsərində dövlətlərarası münasibətlərin nəzəri və parktiki aspektləri əhatəli təhlil edilmişdir. Əsərdə həmçinin Azərbaycanın xarici siyasətinin

[1] Qasımov M. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). Bakı, "Mütərcim", *1997*, 124 *s.*

[2] Məmmədov N. Xarici siyasət: realliqlar və gələcəyə baxiş. Bakı, Qanun Nəşriyyatı, 2013, 264 s.

[3] Abbasbəyli A. Nəcəfov E. Beynəlxalq münasibətlər nəzəriyyəsi. Bakı, 2007, 206s.

[4] Əliyev E. Müasir beynəlxalq münasibətlərdə qütbləşmə problemi. Bakı, Adiloğlu, 2007, 118 s.

[5] Əzimli A. Azərbaycan-NATO münasibətləri(1992-2000). Bakı, 2001, 226s.

[6] Axundov N., Qasımov M. Azərbaycan və beynəlxalq parlament təşkilatları. Bakı, 1996.

[7] Пашаева Г. Европейская безопасность и неурегулированные конфликты на Южном Кавказе//Вестник МГИМО Университета. № 6, 2010, с. 46-52

xüsusiyyətləri, istiqamətləri və prinsipləri ətrafında müzakirələr aparılmışdır.

Tədqiqatçı H.Hüseyinova "Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində" adlı əsərində Azərbaycanın Avropa strukturları ilə əlaqələrinin xüsusiyyətlərindən və səviyyəsindən bəhs olunur.

Tədqiqatçı H.Məmmədova "Azərbaycan Respublikasının müasir dünya siyasətində yeri və rolu" adlı əsərində öncə müasir beynəlxalq münasibətlər sisteminin təbiətindən bəhs olunur. Əsərdə həmçinin Azərbaycan Respublikasının xarici siyasətinin psinsipləri və prioritetləri ətrafında müzakirələr aparılır. Bundan başqa, Azərbaycanının dünyanın ayrı-ayrı ölkələri ilə və beynəlxalq və regional təşkilatlarla əlaqələr qurması və inkişaf etdirməsi prosesi ətrafında təhlillər də qeyd olunan əsərdə yer almışdır.

Digər bir tədqiqatçı A.Abbasbəyli "Beynəlxalq münasibətlərin proqnozlaşdırılmasının nəzəri problemləri" adlı monoqrafiyasında müasir beynəlxalq münasibətlərin xarakterindən bəhz edir, beynəlxalq və regional təşkilatların müasir beynəlxalq münasibətlər sistemindək rolundan, yerindən və fəaliyyət istiqamətlərindən bəhs edir.

Tanınmış alim M.Qasımov əsərlərində beynəlxalq münasibətlər tarixindən, Azərbaycanın xarici siyasətindən, Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki yerindən bəhs edir. Tədqiqatçının "Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri)", "Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər)" kimi əsərlərini xüsusi olaraq qeyd etmək mümkündür.

S.Həmidovun "Avropa İttifaqında siyasi inteqrasiya prosesləri və Azərbaycan" adlı kitabında "Vahid Avropa" ideyası və siyasi inteqrasiya problemləri, Aİ-nin təhlükəsizlik və müdafiə sahəsində həyata keçirdiyi xarici siyasət məsələləri, Avropa İttifaqı və Azərbaycan Respublikası arasındakı əməkdaşlıq geniş təhlil olunmuşdur.

E.Əliyev "Müasir beynəlxalq münasibətlərdə qütbləşmə problemi" adlı əsərində hazırkı dövlətlərarası münasibətlər sistemində qütbləşmə problemi hərtərəfli tədqiq edilir. Bununla yanaşı müasir beynəlxalq münasibətlər sistemində mövcud olan ziddiyyətli məqamlar ətrafında da müzakirələr aparılır.

Tədqiqatçı A.Əzimli "Azərbaycan-NATO münasibətləri" adlı monoqrafiyasında Azərbaycan-NATO münasibətlərinin xarakterindən və inkişafı tendeniyalarından bəhs edir.



E.Süleymanov "Avropa İttifaqı və Azərbaycan: strateji tərəfdaşlığa doğru" adlı kitabında, Azərbaycan–Avropa İttifaqı münasibətlərinin inkişaf dinamikasını araşdırır, "Avropa–Qafqaz–Asiya nəqliyyat dəhlizi" çərçivəsində, enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq, milli qanunvericiliyin Avropa İttifaqı hüquq sisteminə uyğunlaşdırılmasını, təşkilatın Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair səylərini münasibətlərin prioritet istiqamətləri kimi təhlil edir. Azərbaycan və ingilis dillərində nəşr edilən kitabda müxtəlif statistik məlumatlardan, rəsmi sənədlərdən geniş istifadə edilib.

Qərb elmi ədəbiyyatında Avropa İttifaqı və enerji təhlükəsizliyi problemi haqqında onlarla elmi tədqiqat işinə rast gəlmək mümkündür. Avropa İttifaqının enerji siyasəti haqqında araşdırmalar aparmış Qərb müəlliflərindən Peter Cameron, H.Behr, David Kral,[1] Pierson P.,[2] Mischa Becherberger, B.Doran Peter,[3] Danyel T.Reiche, Coen D, Janne Haaland Matlary, Gilson J.,[4] R.Dorfman,[5] C.Kantner ,[6] A.Robertson[7] və s. kimi tədqiqatçıları qeyd edə bilərik.

Gürcü tədqiqatçılardan N.Qeqelaşvili, D.Qudiaşvili,[8] E.Barataşvili,[1] Q.Qvarişvili[2] və başqaları Gürcüstanın Avropa İttifaqı və

---

[1]David Král, Lukáš Pachta "Enlarged European Union and its Foreign Policy: Issues, Challenges, Perspectives", Prague, 2005.

[2] Pierson P. The path to European integration: a historical-institutionalist analysis // European integration and supranational governance. /Ed. by Sandholtz W. and Sweet A. S. – N.Y., Oxford University Press, 1998, p. 27-58.

[3]Doran B. Peter. Collective Energy Security: A New Approach for Europe//Journal of Energy Sekurity. 19 February, 2009

[4] Gilson J. New Interregionalism? The EU and East Asia// European Integration. Vol.3, September 2005, p.307-326

[5] Dorfman R. Azerbaijan and Armenia in Blood Struggle. Oslo/UN. RC Conflict Center. 2005.P.21.

[6] Kantner C. "Collective identity as shared ethical self-understanding: The case of the emerging European identity*"//European Journal of Social Theory,2006,* 9 (4), pp. 501-523.

[7] Robertson A. H. European institutions. Cooperation: integration: unification. London, 1959, 372 P.

[8] Гудиашвили Д. Интеграция в структуры НАТО - внепшеполитическiгii приоритет Грузiш // Центральная Азия и Кавказ 2003, № 4.

digər strukturlarla əlaqələrinin qurulması və inkişafı və perspektivləri problemini əhatə edən elmi-tədqiqat işlərini həyata keçirmişlər. Qeyd olunan tədqiqatçılar əsas diqqətlərini Gürcüstan-Aİ münasibətlərinə və Gürcüstanın AQS-nə cəlb olunması səviyyəsinə və s. yönəldirlər.

Erməni tədqiqatçılarda S.Minasyan, A.Smbatyan, O.Arutyunyan,[3] A.Qasparyan,[4] A.Qaraxanyan,[5] A.Melkumyan[6] və digərləri Ermənistanın xarici siyasətinin istiqamətləri, Avropa strukturları ilə Cənubi Qafqaz ölkələri arasında münasibətlərin vəziyyəti, Ermənistanın Avropa strukturları ilə əlaqələri ətrafında tədqiqat işləri aparmışlar. Erməni tədqiqatçılarının böyük əksəriyyəti öz əsərlərində əsaslandırmağa çalışırlar ki, Ermənistan Avropa İttifaqı ilə Rusiya arasında ciddi seçim qarşısında qalmışdır.

Rusiyalı tədqiqatçılardan A.Boqaturov,[7] S.Bartenev ,[8] S.Jiltsov, S.Zadoxin, S.Mudrov,[9] P.Tsıqankov, A.Duqin,[10] M.Busıqina,[1]

---

[1] Бараташвили Е., Сичинава А., Булия Л. Социально-экономические аспекты отношений ЕС и Грузии в рамках Европейской политики соседства// Кавказ и глобализация. № 3-4, том 4, 2010, с.53-66

[2] Гваришвили Г.Л. Грузия и Европа: Развитие связей грузинского государства с европейскими странами и международными организациями: Дис. к.п.н. / Г.Л.Гваришвили. М., 1999. - 172 с.

[3] Арутюнян О.В. Армения между Россией и ЕС// Вестн. Волгогр. гос. ун-та. Сер. 4, Ист. 2011. № 1 (19), с.160-164

[4] Гаспарян А. Национальная идея и постсоветское пространство. М., 2004,

[5] Караханян А. Геополитические интересы США на Южном Кавказе. Преемственность внешнеполитических установок. Ереван, 2001,

[6] Мелкумян А. Политические взаимоотношения НАТО с государствами Южного Кавказа// автореферат диссертации на соискание ученой степени кандидата политических наук. Москва, 2007, 28 с.

[7] Богатуров А. Д. Современная мировая политика: Прикладной анализ. М., Аспект Пресс, 2010, 592 с.

[8] Бартенев С.А. Особенности закрепления компетенции Европейского союза в учредительных договорах / С.А. Бартенев, М.Л. Энтин // Право и упр. XXI век. 2008, № 2. с. 9–14.

[9] Мудров С. Четыре взгляда на Европейский союз. // Наш современник. 2005, № 12, с.219–228

[10] Дугин А.Г. Кавказский узел.// Современные проблемы геополитики Кавказа/ Южнороссийское обозрение. Ростов-на-Дону. Издательство СКНЦ ВШ, Вып. 5, 2001, с.26-32



V.Şustov,[2] Y.Kudryaşova,[3] A.Kniqa,[4] L.Lukina,[5] K.Yumatov,[6] Y.Movçan[7] və başqaları Cənubi Qafqaz regionun geosiyasi və geoiqtisadi xüsusiyyətləri ətrafında tədqiqat işləri aparmışlar. Qeyd etdiyimiz tədqiqatçılar həmçinin region ölkələri ilə ayrı-ayrı beynəlxalq və regional təşkilatlar arasında əlaqələrin qurulması və inkişaf etdirilməsi problemləri ətrafında da araşdırmalar aparmışlar. Rusiyalı tədqiqatçılar Cənubi Qafqaz ölkələrinin Avropa inteqrasiya prosesində iştirakı perspektivləri ətrafında da təhlillər aparmışlar.

**Tədqiqatın obyekti.** Tədqiqatın obyektini ümumi şəkildə Cənubi Qafqaz ölkələrinin Avropa strukturlarına inteqrasiyası problemi təşkil edir.

**Tədqiqatın predmeti.** Tədqiqatın predmetini Cənubi Qafqaz ölkələrinin Avropa strukturlarına inteqrasiyasının xüsusiyyətlərinin, prosesə təsir edən amillərin araşdırılması təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın məqsədi Cənubi Qafqaz ölkələrinin Avropa strukturlarına inteqrasiyası prosesinin ayrı-ayrı məqamlarının tədqiq edilməsindən ibarətdir. Qarşıya qoyulmuş məqsəddən çıxış olunaraq aşağıdakı vəzifələrin yerinə yetirilməsi müəyyənləşdirilmişdir:

---

[1] Бусыгина И.М. Европейский союз: новые измерения концепции суверенитета // Полит. наука. 2005, № 4, с. 47–69.

[2] Шустов В. Место ОБСЕ в европейской архитектуре // Международная жизнь. 2001, № 11, 49–58.

[3] Кудряшова Ю.С. Государства Южного Кавказа в Европейской Политике Соседства// Аналитические записки НКСМИ МГИМО (У) МИД России. 2008, Выпуск 6, с. 31-39

[4] Книга А.С., Пархаев В.Н. Европейская интеграция: Учеб. Пособие. Барнаул, Изд-во АлтГТУ, 2004, 124 с.

[5] Лукина Л.С. Совет Европы в контексте интеграции // Проблемы интеграции правовой системы Республики Беларусь в европейское и мировое правовое пространство: Матер. Межд. науч. конф., 26–27 окт. 2001 г., г.Гродно. Гродно, ГрГУ, 2002, с. 103–107

[6] Юматов К.В. Эволюция политики Европейского Союза на Южном Кавказе// Вестник Томского Государственного Университета// История, № 1, 2012, с.126-131

[7] Мовчан Ю.В. Политико-правовые аспекты интеграционного процесса в Европейском союзе // Евраз. юрид. журн. 2009, № 11,с. 105–109.

- avropa strukturlarını və onların Cənubi Qafqaz respublikaları ilə əməkdaşlığının səviyyəsini təhlil etmək;

-Avropa inteqrasiyasının mahiyyətinin açılması;

-Cənubi Qafqaz Respublikalarının Aİ-na inteqrasiyası prosesinin hərtərəfli tədqiqi;

-Cənubi Qafqaz ölkələrinin ayrı-ayrı Avropa strukturları arasında əlaqələrin qurmaları və inkişafı prosesinin tədqiqi;

-Cənubi Qafqazdakı münaqişələrin tənzimlənməsində Avropa strukturlarının rolunun müəyyənləşdirilməsi;

-Cənubi Qafqaz ölkələri ilə Avropa iqtsadi strukturları arasında əlaqələrin səviyyəsinin araşdırılması.

**Tədqiqatın nəzəri və metodoloji əsaslar.** Tədqiqatlarımız zamanı əsasən Rusiyalı, avropalı və azərbaycanlı tədqiqatçıların çoxsaylı əsərlərinə müraciət olunmuşdur. Həmçinin, Cənubi Qafqaz ölkələri Avropa strukturları arasında əldə edilmiş razılaşmalar, fəaliyyət planları və digər sənədlər də mənbə kimi istifadə olunmuşdur. Bundan başqa, tədqiqatlar zamanı internet resurslarından geniş istifadə edilmişdir.

Seçilmiş mövzu ətrafında tədqiqatlar aparan zaman sistemli yanaşma, müqaisəli təhlil, tarixi, ekspert təhlil, nəzəri ümumiləş-dirmə və s. metodlar tətbiq edilmişdir. Bundan başqa, sənədlərin öyrənilməsi, ümummәntiqi və proqnozlaşdırma metodlarından müəyyən məqamlarda istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatlarımız aşağıdakı elmi nəticələrin əldə olunmasını şərtləndirmişdir:

-Cənubi Qafqaz ölkələri müstəqilliklərinin ilk illərindən obyektiv reallıqların təsiri altında Avropaya inteqrasiya kursuna üstünlük vermişlər;

-Avropa İttifaqı Cənubi Qafqaz regionu ilə bağlı konseptual əsaslara söykənən strategiya reallaşdırmaqdadır;

-ayrı-ayrı Avropa strukturları Cənubi Qafqaz ölkələri ilə əlaqələrini inkişaf etdirməklə Aİ-nin regionla bağlı strategiyasının reallaşdırılmasına dəstək olmağa çalışırlar;

-Avropa İttifaqı region ölkələrinin ayrı-ayrılıqda deyil, birgə Avropaya inteqrasiyasında maraqlıdır;

-Avropa İttifaqının Cənubi Qafqaz regionunda həyata keçirdiyi geosiyasi və geoiqtisadi strategiyalar biri-birilərini dəqiqliklə tamamlayırlar;



-Avropa strukturları regiondakı münaqişələrin ədaləti tənzimlənməsi məsələsində prinsipiallıq nümayiş etdirməkdə maraqlı deyillər;

-Avropa struktuları Cənubi Qafqaz regionundakı münaqişə vəziyyəti ilə bağlı obyektiv mövqe nümayiş etdirmirlər.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqat işi Cənubi Qafqaz regionun geosiyasi və geoiqtisadi xüsusiyyətləri və region ölkələrinin Avropa interqasiya prosesində iştirakı prinsipləri və səviyyəsi haqqında dolğun təsəvvürlər əldə etmək baxımından dəyərli nəzəri mənbə rolunda çıxış edə bilər. Tədqiqat işinin nəticələrindən oxşar mövzular ətrafında tədqiqatlar aparan zaman istifadə etmək mümkündür.

Tədqiqat işinin nəticələrindən mövzularda mühazirələrin oxunması zamanı da istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası** Dissertasiya işi Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər kafedrasında müzakirə olunmuş və müdafiəyə tövsiyə edilmişdir. Tədqiqatın əsas məzmunu və müddəaları müəllifin Azərbaycanda və xaricdə nəşr olunan məqalələrində, eyni zamanda respublika və beynəlxalq elmi-praktik konfrans materiallarında öz əksini tapmışdır.

**Tədqiqat işinin strukturu**: Dissertasiya işi giriş, 3 fəsil, 7 paraqraf, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **"Avropa İttifaqının Cənubi Qafqaz siyasətinin imperativləri"** adlı birinci fəslinin **birinci paraqrafı "Cənubi Qafqaz respublikaları Aİ-nin regional maraqları sistemində"** adlanır. Bu paraqrafda Cənubi Qafqaz region səciyyələndirilir və regionda Aİ-nin maraqları tədqiq edilir. Bu fəslin birinci paraqrafında qeyd edilir ki, Beynəlxalq aktorlar regionun zəngin karbohidrogen ehtiyatlarına, unikal nəqliyyat-kommunikasiya imkanlarına, geostrateji üstünlüklərinə və s. görə diqqətlərini buraya yönəltmişlər. Sovet İttifaqının mövcudluğu dövründə Cənub Qafqaz regionu uğrunda mübarizə gizli getsə də, ötən əsrin 90-cı illərininin başlanğıcında dünyadakı dərin transformasiyalar region uğrunda barışmaz mübarizənin açıq müstəviyə keçməsini şərtləndirmişdir. Təbii ki, Avropa İttifaqının da regiona ciddi maraq göstərməsinin motivlərində

məhz zəngin karbohidrogen ehtiyatlarına, əlverişli tranzit imkanlarına malik olan bu strateji məkanda nəzarətini və təsir imkanlarını təmin etmək istəyi dayanır. Cənubi qafqazın geosiyasi mövqeyi Xəzər dənizinə və Orta Asiya əlverişli çıxış imkanları yaradır ki, Aİ üçün bu məqam xüsusilə əhəmiyyətlidir.

Cənubi Qafqaz ölkələri Avropa İttifaqı, Avropa Şurası, ATƏT və NATO kimi əsas Avropa strukturları və onların müxtəlif orqanları ilə qarşılıqlı əlaqələrin və əməkdaşlığın qurulmasında və inkişaf etdirilməsində ciddi fəallıq nümayiş etdirdilər. Təbii ki, qarşı tərəfdən gələn impulslar bu prosesin daha dinamik olmasını təmin edirdi. Cənubi Qafqaz ölkələrinin əsas Avropa strukturlarına inteqrasiyasının hazırkı vəziyyəti, perspektivləri və onlarla əməkdaşlığın istiqamətləri haqqında ayın təsvvürlərə malik olmaq üçün bu strukturların xüsusiyyətlərinə yaxından nəzər salmaq vacibdir.

Birinci fəslin **ikinci paraqrafı "Cənubi Qafqaz Respublikalarının Aİ-na inteqrasiyası: problemlər, perspektivlər"** adlanır. Bu paraqrafda qeyd edilir ki, Avropa cəmiyyəti Aİ-nin Cənubi Qafqaz regionundakı rolunun və əhəmiyyətinin səviyyəsinə kifayət qədər nikbinliklə yanaşır. Avropa İttifaqı ölkələrinin əhalisinin 67%-i hesab edir ki, Avropa İttifaqı ilə yaxından əməkdaşlıq Cənubi Qafqazda müharibə və ya münaqişə risklərini əhəmiyyətli dərəcədə aşağı salır. 62%-i isə hesab edir ki, bu əməkdaşlıq sayəsində qeyri-qanuni immiqrasiyanın səviyyəsi azalır. Cənubi Qafqaz ölkələrinin əhalisi Avropanın regiondakı rolunu avropalıların özləri qədər yüksək qiymətləndirməsələr də, hesab edirlər ki, Aİ region ölkələrinin siyasi və iqtisadi cəhətdən yenidən təşkilatlanmasında müəyyən rola malikdir. Hətta region ölkələrinin əhalisinin müəyyən bir qismi tam əmindirlər ki, Avropa İttifaqı regionda təhlükəsizliyin, demokratiyanın və stabilliyin qarantı rolunda çıxış edə bilər. Azərbaycan və Gürcüstan ictimaiyyətləri Avropadan ən çox mövcud münaqişələrin tənzimlənməsində real dəstək gözləyirlər. Lakin, günümüzün reallığı ondan ibarətdir ki, Avropa İttifaqı region ölkələrinin Avratlantik məkana inteqrasiyanın ilkin şərti kimi burada münaqişələrin aradan qaldırılmasını bəyan etsə də, bu istiqamətdə real addımlar atmaq niyyətindən uzaqdır. Sanki Avropada belə bir əminlik var ki, regiondakı münaqişə vəziyyətləri ilə bağlı, xüsusi ilə də, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə obyektiv mövqe nümayiş etdirilərsə, onda regionun ümumi inteqrasiyası



prosesinin səmərəliliyi azalar. Avropa İttifaqı Cənubi Qafqaz ölkələri ilə əlaqələrini inkişaf etdirərkən balansı gözləməyə üstünlük verir ki, bu bir çox məqamlarda ədalətsiz yanaşma kimi qiymətləndirilə bilər. Belə ki, işğalıçı Ermənistanla işğala məruz qalmış Azərbaycanla eynisəviyyəli əlaqələrin qurulması təbii ki, düzgün başa düşülən deyil. Eynilə, hər üç region dövlətinin Avropa qonşuluq siyasətinə cəlb olunması zamanı da balanslaşdırma siyasətinə istinad olunmuşdur. Biz də öz növbəmizdə hesab edirik ki, Avropa İttifaqının regionla bağlı siyasətini reallaşdıran zaman balanslaşdırma prinsipindən çıxış etməsi, onun həyata keçirdiyi layihələrin, həmçinin AQS-in əhəmiyyətini ciddi şəkildə azaldır. Onu da qeyd etmək lazımdır ki, AQS Cənubi Qafqaz ölkələrinin Avropa İttifaqına üzv olmalarını nəzərdə tutmur.

Birinci fəslin **"Cənubi Qafqaz ölkələri ilə NATO arasında əməkdaşlığın istiqamətləri və səviyyəsi"** adlanan **üçüncü paraqrafında** NATO ilə Cənubi Qafqaz ölkələri arasında əməkdaşlığın səviyyəsindən və inkişaf tendensiyalarından bəhs olunur. Nəzərə çatdırılır ki, Cənubi Qafqaz ölkələrinin NATO ilə əməkdaşlığı səviyyəsində nəzərəçarpacaq fərqlər görünməkdədir. Belə ki, Gürcüstan NATO-ya meyliliyini gizlətmir və Alyansa üzv olmaq üçün bütün hazırlıq prosesini dinamik keçməkdə maraqlı görünür. Cənubi Qafqaz ölkələri içərisində NATO ən çox Gürcüstana nüfuz edə bilmişdir. Bu mənzərə hələ ötən əsrin 90-cı illərində aydın müşahidə olunurdu. Məsələn, təkcə 1998-ci ildə Gürcüstan NATO-nun patronajlığı ilə reallaşdırılan müxtəlif xarakterli 83 tədbirin iştirakçısı olmuşdur. 2002-ci ildən başlayaraq isə Gürcüstanla NATO arasında intensiv praktiki əməkdaşlıq həyata keçirilməyə başlamışdır. 2006-cı ilin sentyabrında NATO, bloka qoşulması ilə bağlı Gürcüstanla intensiv dialoqa başladığını bəyan etmişdir. Gürcüstan NATO-nun "Fərdi əməkdaşlıq fəaliyyəti planı" çərçivəsində əməkdaşlığa başladığı ilk ilk region ölkəsi olmuşdur. Azərbaycan və Ermənistanla müqaisədə Gürcüstan NATO ilə əməkdaşlıqda xüsusi fəallığı ilə seçilmişdir. Hətta, hesab etmək olar ki, NATO-nun Cənubi Qafqaza yolunu açan da məhz Gürcüstanda baş "qərənfil inqilabı" olmuşdur. Ümumiyyətlə, müşahidələr göstərir ki, Gürcüstan həm NATO, həm də Aİ-yə münasibətdə Ermənistana və Azərbaycana nisbətən daha iddialı siyasət yeritmişdir. Bunun da başlıca səbəbi ondan ibarət olmuşdur ki, Azərbaycanın və Ermənistanın Rusiya ilə münasibətləri heç vaxt Rusiya-Gürcüstan münasibətləri qədər

gərginlik dövrünü yaşamamışdır. Gürcüstan həmişə əmin olmuşdur ki, NATO ilə yaxınlaşmaq Rusiyanın təsirlərinin neytrallaşdırılmasının ən səmərəli yoludur. Yenə də Ermənistandan və Azərbaycandan fərqli olaraq Gürcüstanda NATO ilə əməkdaşlığa kütləvi çağırışlar müşahidə olunmuşdur. 2008-ci ildə Gürcüstanda keçirilmiş refendumda əhalənin 77%-i NATO-ya daxil olmağı dəstəkləmişdir. Bildiyimiz kimi, Azərbaycanda və Ermənistnda ümumiyyətlə, belə bit referendum keçirilməmişdir. Gürcüstanın NATO-ya qoşulmaq təşəbbüslərini açıq-aşkar nümayiş etdirməsinə baxmayaraq, alyans hər üç region ölkəsi ilə eyni səviyyədə təmasları sıxlaşdırmaqda maraqlı olmuşdur. 2008-ci ildə Rusiya-Gürcüstan müharibəsi zamanı Gürcüstanın gözləntilərinin əksinə olaraq, NATO onu yaxından dəstəkləmədi.

Azərbaycanla NATO arasında əməkdaşlığın tarixi də 1994-cü ildən başlayır. 1994-cü ilin mayında Azərbaycan tərəfi SNT proqramının çərçivə sənədini imzaladı. Yeri gəlmişkən qeyd edək ki, Sülh Naminə Tərəfdaşlığın əsas məqsədlərindən biri Tərəfdaş-dövlətlərin silahlı qüvvələrinin onların NATO qüvvələri ilə sülhyaratma fəaliyyətində qarşılıqlı əlaqədə ola bilməsi üçün inkişaf etdirilməsindən ibarətdir.

NATO-Ermənistan əməkdaşlığı deklorativ xarakter daşıyır. Ermənistan da digər Cənubi Qafqaz respublikaları kimi 1994-cü ildə NATO-nun SNT proqramına qoşulmuşdur. Lakin onun Alyanla əməkdaşlığının dinamikliyi Azərbaycan və Gürcüstandan nəzərəçarpacaq dərəcədə zəif olmuşdur. Ermənistanın başqa bir hərbi-siyasi blokun-KTMT-nin üzvü olması, onun NATO ilə təmaslarının sıxlaşması imkanlarını əhəmiyyətli dərəcədə azaldır.

Dissertasiyanın ikinci fəsli **"Cənubi Qafqaz respublikalarının ATƏT və AŞ ilə əməkdaşlığı"** adlanır. Bu fəslin "**Cənubi Qafqaz respublikaları ilə ATƏT və AŞ arasında təmasların qurulması və əməkdaşlığın istiqamətləri**" adlanan **birinci paraqrafında** nəzərə çatdırılır ki, Cənubi Qafqaz ölkələrinin intensiv təmaslar qurduğu və əməkdaşlıqlarını davamlı olaraq genişləndirdiyi mühüm Avropa strukturlarından biri də ATƏT-dir. ATƏT-in əsas özəlliklərindən biri ondan ibarətdir ki, o, Avropada təhlükəsizliyə və əməkdaşlığa məsul olmaqla, "köhnə dünyanın" bütün ölkələrini əhatə edən yeganə təşkilatdır. Azərbaycanın 1992-ci ildən üzv olduğu ATƏT-lə əlaqələrini kifayət qədər dinamikliklə inkişaf etdirə bilmişdir. Bunu, ölkəmizin 1992-ci ildə ATƏM-in Helsinki Yekun Aktına, 1993-cü ildə Paris



Hartiyasına, 1999-cu ildə ATƏT-in Təhlükəsizlik Hartiyasına qoşulması da sübut edir. Bu ondan xəbər verir ki, Azərbaycan Respublikasında ATƏT-in çağırışlarına cavab verməklə, təhlükəsizliyin qorunması və əməkdaşlığın inkişaf etdirilməsi prosesinə özünün yaxından töhfəsini verməyə çalışmışdır. ATƏT-lə əməkdaşlığın genişləndirilməsi Azərbaycan Respublikasının xarici siyasətinin mühüm trendlərindən birini təşkil edir. Azərbaycan Respublikası ATƏT-lə əməkdaşlığını əsasən onun müxtəlif strukturları vasitəsilə genişləndirir.

Azərbaycan kimi ATƏT-Gürcüstan əlaqələri əsasən münaqişəli vəziyyətin aradan qaldırılması istiqamətində qurulmuşdur və inkişaf etmişdir. Belə ki, 1992-ci ilin dekabranında silahlı münaqişələrin başlanması ilə əlaqədar olar ATƏT-in missiyası Gürcüstanda fəaliyyətə başlamışdır. Missiyanın fəaliyyətə başladığı dövrdən qarşısında duran vəzifələrin sayı davamlı olaraq genişlənmişdir. Belə ki, o, fəaliyyətdə olduğu dövrdə Gürcüstan hökumətinə münaqişələrin tənzimlənməsi, demokratikləşmə, insan haqqları və qanunçuluq sahələrində dəstək olmuşdur. ATƏT-in Gürcüstandakı missiyasının əsas fəaliyyət istiqamətlərindən biri gürcü-osetin münaqişəsinin tənzimlənməsində danışıqları dəstəkləməkdən ibarət olmuşdur.

Azərbaycan və Gürcüstan kimi Ermənistan da 1992-ci ildən etibarən ATƏT-in üzvüdür. ATƏT Azərbaycan və Gürcüstanla əməkdaşlığının istiqamətlərini Ermənistanda da həyata kçirməkdədir. Belə ki, Ermənistan da digər iki Cənubi Qafqaz ölkəsi kimi ATƏT qarşısında insan haqqları, demokratikləşmə, vətəndaş cəmiyyəti quruculuğu sahələrində öhtəliklər götürmüşdür. Ermənistanın Azərbaycana qarşı irəli sürdüyü ərazi iddiası və yürütdüyü işğalçılıq siyasəti nəticəsində meydana gələmiş Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tənzimlənməsi, artıq qeyd etdiyimiz kimi, 1992-ci ilin fevralından etibarən ATƏT-in Minsk Qrupuna həvalə edilmişdir. Hesab edirik, münaqişənin tənzimlənməsi prosesində ATƏT-in Minsk Qrupunun nümayiş etdirdiyi mövqe ümumilikdə ATƏT-in işğalçı Ermənistana daha həssaslıqla yanaşması haqqında qənaət formalaşdırır.

İkinci fəslin **ikinci paraqrafı "Cənubi Qafqazdakı münaqişələrin tənzimlənməsində ATƏT və AŞ-ının rolu"** adlanır. Bu paraqrafda Cənubi Qafqazdakı münaqişələrin tənzimlənməsində ATƏT və AŞ-ının təsir imkanlarından bəhs olunur. Nəzərə çatdırılır ki, Avropa strukturlarının regiondakı münaqişələrin dinc vasitələrlə tənzimlənməsi

istiqamətində fəaliyyəti ümidverici kimi görünmür. Məsələn, ATƏT-in regiondakı münaqişələrin tənzimlənməsi prosesində sərgilədiyi mövqeni nəzərdən keçirməklə, buna bir daha əmin olmaq mümkündür. 1992-ci ildən Gürcüstan ərazisindəki gürcü-abxaz və gürcü-osetin münaqişələri ATƏT-in xüsusi diqqət mərkəzindədir. Belə ki, həmin dövrdə ATƏT xüsusi missiyası Gürcüstandakı münaqişələrin dinc vasitələrlə tənzimlənməsinə yardım etmək məqsədi ilə fəaliyyətə başlamışdır. 1994-cü ilin martında missiyanın gücləndirilməsi haqqında qərar qəbul olunmuşdur. Qeyd edək ki, missiya Gürcüstan ərazisində mövcud olan hər iki münaqişə vəziyyəti ilə bağlı konkret addımların atılmasını nəzərdə tutmuşdur.

Cənubi Qafqaz regionunda Gürcü-Abxaz və Gürcü-Osetin münaqişələrinin də mövcud olmasına baxmayaraq, regionda təhlükəsizliyə və sülhə ciddi təhdid yaradan əsas münaqişə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. 20 ildən çox davam edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi mahiyyətinə görə müxtəlif geosiyasi, dövlət-hüquqi və informasion kontekstlərdən keçmişdir. Bu müddət ərzində Sovet İttifaqının suğutu və böhranından başlayaraq öz müstəqilliyini bəyan edənədək Azərbaycan tarixin çətin sınaqlarından keçmişdir. Bu mərhələdə Azərbaycanda yenidənqurma prosesləri, digər respublikalardan fərqli olaraq konfliktin mövcudluğu səbəbindən əhəmiyyətli dərəcədə ağırlaşmışdır. Qeyd edək ki, fəaliyyətə başladığı 1992-ci ildən 2005-ci ilə qədər ATƏT-in Minsk qrupu danışıqların təməli kimi üç əsas təklif irəli sürülmüşdür, baxmayaraq ki, bu təkliflərin heç biri münaqişənin nizamlanmasına kömək edə bilməmişdir.

ATƏT-lə yanaşı, Avropa Şurası da Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesində yaxından iştirak edən təşkilatlardandır. Hər şeydən öncə qeyd edək ki, Avropa Şurasının bu iştirakı heç də həmişə müsbət tərəfdən səciyyələndirilə bilməz.

Dissertasiyanın üçüncü fəsli **"Cənubi Qafqaz respublikalarının Avropa iqtisadi məkanına inteqrasiyası"** adlanır. Bu fəslin **"Cənubi Qafqaz respublikaları və Avropa iqtisadi strukturları"** adlanan **birinci paraqrafında** qeyd olunur ki, Avropa iqtisadi strukturları Cənubi Qafqaz regionunun iqtisadi inteqrasiyasına maraq göstərmələri üçün kifayət qədər ciddi əsas vardır. Hər şeydən öncə, qeyd



etdiyimiz kimi, Cənubi Qafqaz Xəzər hövzəsinin zəngin karbohidrogen ehtiyatlarının Avropaya çatdırılması üçün ən optimal dəhliz rolunda çıxış edir. Avropa və Asiya arasında ticarət mərkəzinə çevrilməsi üçün də Cənubi Qafqaz bütün imkanlara və şanslara malikdir. Xəzər hövzəsinin enerji resursları Avropa İttifaqının enerji təchizatının diversifikasiyası üçün ən vacib mənbə rolunda çıxış edir. Artıq apardığımız təhlillər də göstərdi ki, Cənubi Qafqaz ölkələrinin Avropa İttifaqı ilə yaxınlaşması uzun və mərhələli bir proses olmaqla, kompleks məqamları əhatə edir. Bu məqamların iqtisadi xarakteri özünü daha qabarıq biruzə verir. Cənubi Qafqaz regionu Avropa İttifaqı tərəfindən zəngin enerji ehtiyatlarına malik olan geostrateji məkan kimi nəzərdən keçirilir. Bu baxımdan, Aİ Cənubi Qafqaz ölkələri ilə iqtisadi və siyasi inteqrasiya prosesinə xüsusi diqqət yetirir və geosiyasi maraqları ilə geoiqtisadi maraqlarını dəqiqliklə uzlaşdırır. Xüsusi olaraq qeyd etmək lazımdır ki, region ölkələri içərisində Azərbaycanla iqtisadi tərəfdaşlıq münasibətlərinin inkişaf etdirilməsi istiqamətində cəhdlər daha aydın müşahidə olunur. Bu inteqrasiya prosesindən Azərbaycanın ciddi iqtisadi və siyasi dividentlər qazanacağı şübhəsizdir. Hər şeydən öncə Avropa ölkələri ilə və ya Avropa iqtisadi strukturları ilə sıx iqtisadi əməkdaşlıq üstün Avropa təcrübəsinin milli iqtisadiyyatın inkişaf etdirilməsində tətbiqi kifayət qədər vacib məqamdır.

Üçüncü fəslin **"Regionda həyata keçirilən iqtisadi layihələr və onların Avropaya inteqrasiya prosesinə təsiri"** adlanan **ikinci paraqrafında** nəzərə çatdırılır ki, Cənubi Qafqaz regionu Avropa üçün təkcə geosiyasi deyil, həm mühüm geoiqtisadi əhəmiyyətinə görə cəlbedicidir. Bildiyimiz kimi, region özünün zəngin karbohidrogen ehtiyatları ilə daim dünyanın güc mərkəzlərinin diqqət mərkəzində olmuşdur. Region ölkələrinin özləri də enerji sahəsində əməkdaşlığın qurulmasında və genişləndirilməsində maraqlı idilər. Belə ki, region ölkələrindən aydın dərk olunurdu ki, bütövlükdə regionun iqtisadi inkişafı Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarından birbaşa asılıdır. Təsmini hesablamalara görə Xəzər dənizinin neft-qaz potensialı 50 milyard barreldən 200 milyard barrelə kimi neft və kondensata bərabərdir. SSRİ-nin süqutundan sonra, dünya təsərrüfat sistemində Cənubi Qafqaz regionunun önəmli yeri daha aydın görünməyə başladı. Aydındır ki, Cənubi Qafqaz regionu özünün yüksək enerji potensialı ilə təkcə passiv istehlakçı rolunda çıxış etmir, əksinə dünya iqtisadiyyatına

ciddi töhfə verməkdədir. Regionun geoiqtisadi rolu əsasən onun enerji potensialı ilə müəyyənləşdiyinə görə, burada həyata keçirilən iqtisadi layihələr müvafiq olaraq enerji sektorunu əhatə edir. Hər şeydən öncə, Xəzər hövzəsinin enerji daşıyıcılarının sabit və təhlükəsiz şəkildə Avropa bazarına çıxarılması həyata keçirilən iqtisadi layihələrin hədəfini təşkil edir. Müasir mərhələdə Avropa bu layihələrin həyata keçirilməsini özünün enerji təhlükəsizliyinin təmin olunmasının başlıca şərti kimi nəzərdən keçirir. Avrasiyanın demək olar ki, mərkəzində yerləşməklə, Cənubi Qafqaz regionu enerji daşıyıcılarının Avropaya çatdırılması üçün unikal nəqliyyat-kommunikasiya imkanları təqdim edir. Regionun nəqliyyat kommunikasiyaları Şimal-Cənub və Qərb-Şərq istiqamətində birləşdirici rolunu oynayır. Avropada aydın dərk edilir ki, Cənubi Qafqazda nəzarət imkanlarına sahib olmaqla, həm unikal kommunikasiya imkanlarını əldə etmək mümkündür. Region ölkələri ilə enerji və nəqliyyat-kommunikasiya sahəsində əməkdaşlığın genişləndirilməsi, onların Avropa strukturlarına inteqrasiyası prosesində əlavə stimullaşdırıcı rolunda çıxış edir. Bu baxımdan, qeyd etmək olar ki, iqtisadi sahədə əməkdaşlıq siyasi dialoqların daha səmərəli olmasını şərtləndirir.

**Nəticədə** tədqiqatların yekun müddəaları ifadə olunmuşdur. Qeyd edilir ki, Avropa inteqrasiyasını zəruri edən məqamlardan ən əsası rolunda Avropa haqqında ümumi mədəni-sivilizasiyanın mövcudluğu ilə bağlı təsəvvürlər çıxış etmişdir. Avropa Cənubi Qafqazın unikal geosiyasi və geoiqtisadi imkanlarından özünü hərbi-siyasi və iqtisadi maraqlarını təmin etmək istiqamətində xüsusi strategiya tətbiq etməyə üstünlük vermişdir. Cənubi Qafqazı Avropa strukturları üçün cəlbedici başlıca məqam regionun yüksək tranzit imkanları və zəngin enerji resursları idi. Bundan başqa, region Mərkəzi Asiyaya unikal çıxış imkanları verirdi. Regionun yenidən Rusiyanın təsir orbitinə daxil olması ehtimalları da Avropanı xüsusi fəallıq nümayiş etdirməyə vadar etmişdir.

**Dissertasiya işinin əsas məzmunu müəllifin çap etdirdiyi aşağıdakı əsərlərdə öz əksini tapmışdır:**


1. Azərbaycanın Avropa strukturlarına inteqrasiyası // Beynəlxalq hüquq və inteqrasiya problemləri elmi-analitik və praktik jurnal 2013 3(35) s.349 -352

2. Тренды южно-кавказской политики ЕС и Грузия / Междкультурные коммункации – Международное научно-периодическое издания (Intercultural communications – International scientific periodical edition) ISSN 1512-4363, №22, Тбилиси (Tbilisi) 2014. s.163-168

3. Уровень сотрудничества Азербайджанской Республики со специализированными учреждениями ООН на современном этапе // Law and politilogy international scientific journal , ISSN 1987-5533. №26 Chisinau june 2014 (Международный научный журнал право и политологии ) s. 62-66

4. Postsovet dönəmi inteqrasiyaya qoşulma proseslərində Mərkəzi Asiya və Cənubi Qafqaz regionunda geostrateji maraqların toqquşması. Qloballaşma şəraitində diplomatik münasibətlərin iqtisadi və siyasi xüsusiyyətləri / BDU-nun 95 illik yubileyinə həsr olunmuş respublika səviyyəli elmi-praktiki konfransın materialları. Bakı, 27-28.11.2014 səh.250-255

5. Avropa Qonşuluq siyasəti çərçivəsində Cənubi Qafqaz dövlətlərinin Avropa İttifaqı ilə yaxınlaşması // Tarix və onun problemləri. Nəzəri,elmi,metodik jurnal. Baki-2014 (4) s. 209-216

6. Azərbaycanda elektron hökumət quruculuğu prosesi Avropa strukturlarının diqqət mərkəzində / Elektron dövlət quruculuğu problemləri İ respublika elmi-praktiki konfransın əsərləri,Bakı 2014. s.54-57

7. Genişlənən NATO və Cənubi Qafqaz: baxışlar və mövqelər // Beynəlxalq hüquq və inteqrasiya problemləri elmi-analitik və praktik jurnal 2014 (3)39. səh.341-347

8. Avropa inteqrasiya prosesi və Cənubi Qafqaz ölkələri // Beynəlxalq hüquq və inteqrasiya problemləri elmi-analitik və praktik jurnal 2015 (3)43. Səh.149-155

9. Əsas Avropa strukturları və onların Cənubi Qafqaz ölkələri ilə əməkdaşlığının səviyyəsi // Tarix və onun problemləri. Nəzəri,elmi,metodik jurnal. Baki-2015 (3). Səh.195-201

10. ATƏT və AŞ-ının Cənubi Qafqazdakı münaqişələrin tənzimlənməsində rolu // Geostrategiya. Aylıq icyimai-siyasi, elmi populyar jurnal. 01 (31) Bakı-2016. Səh 73-76

11. Avropa İttifaqının Cənubi Qafqaz ölkələri ilə siyasi və iqtisadi əlaqələrinin xarakteri // Beynəlxalq hüquq və inteqrasiya problemləri elmi-analitik və praktik jurnal 2016, (3)43. Səh.152-160
12. Cənubi Qafqaz ölkələri ilə Aİ arasında iqtisadi inteqrasiyanın vəziyyəti // Sivilizasiya. Aylıq icyimai-siyasi, elmi populyar jurnal. V cild, № 4 (32) Bakı-2016, Səh. 26-30



**Хатира Эйваз гызы Мехдиева**

## РЕЗЮМЕ

### Интеграция Республик Южного Кавказа в Европейские структуры: сравнительный анализ

Диссертационная работа на тему «Интеграция Республик Южного Кавказа в европейские структуры: сравнительный анализ» охватывает весьма актуальную проблему. В конце XX века в международных отношениях произошли глубокме изменеия. Волна этих изменений также охватили южно-кавказский регион. После приобретения независимости страны Южного Кавказа взяли курс интеграции в европейские структуры. На основе такого выбора стояли объективные причины. Так как экономическая система стран Южного Кавказа была разрушена, острые конфликты в регионе представляли серьезную угрозу для системы региональной безопасности. Поэтому, для разрешения этих проблем возможности европейских структур оценивались очень высоко.

После распада СССР западные государства получили реальную возможность для реализации своих геополитических и геоэкономических интересов в регионе. ЕС был заинтересован в распространии европейских ценностей в регионе. Эта европейская структура создала надежную платформу для эффективного сотрудничества с республиками Южного Кавказа. Европейский Союз уделяет особое внимание на развитие сотрудничества с государствами региона во всех направлениях. В свою очередь государства Южного Кавказа определили интеграцию в европейские структуры как приоритет внешней политики. ЕС имеет четкую стратегию для реализации внешнеполитической деятельности в регионе. Интеграция стран Южного Кавказа в европейские структуры способствуется с помощью определенных программ. Государства Южного Кавказа приследуют свои стратегические интересы в процессе интеграции в европейские структуры. Такие европейские структуры как ЕС, НАТО, ОБСЕ и др. тесно сотрудничат со странами южно-кавказского региона. Европейские структуры имеют в регионе экономические, энергетические, военно-политические интересы.

**Mehdiyeva Khatira Eyvaz**

## SUMMARY


### Integration of the Republics of South Caucasus into the European structures: comparative analysis

Dissertation work on the subject "Integration of the Republics of South Caucasus into the European structures: comparative analysis" covers very actual problem. At the end of the XX century in the international relations there were profound changes. A wave of these changes have also captured the southern Caucasian region. After acquisition of independence of the country of South Caucasus have headed integration into the European structures. On the basis of such choice there were objective reasons. As the economic system of the countries of South Caucasus has been destroyed, the sharp conflicts in the region posed serious threat for system of regional security. Therefore, for permission of these problems of a possibility of the European structures were highly appreciated very much.

After collapse of the USSR the western states have had a real opportunity for realization of the geopolitical and geoeconomic interests in the region. The EU has been interested in a rasprostraniye of the European values in the region. This European structure has created a reliable platform for effective cooperation with the republics of South Caucasus. The European Union pays special attention to development of cooperation with the states of the region in all directions. In turn the states of South Caucasus have defined integration into the European structures as a priority of foreign policy. The EU has accurate strategy for realization of foreign policy activity in the region. Integration of the countries of South Caucasus into the European structures is promoted by means of certain programs. The states of South Caucasus pursue the strategic interests in the course of integration into the European structures. Such European structures as the EU, NATO, OSCE, etc. closely to cooperate with the countries of the southern Caucasian region. The European structures have economic, power, military-political interests in the region.




**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**Хатира Эйваз гызы Мехдиева**

# Интеграция Республик Южного Кавказа в Европейские структуры: сравнительный анализ

5901.01 – Международные отношения

**А В Т О Р Е Ф Е Р А Т**
диссертации на соискание ученой степени доктора философии по политическим наукам

**БАКУ - 2017**